**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**NAZİM HİKMƏT oğlu MƏMMƏDLİ**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA BAZAR PROSESLƏRİNİN İDARƏ OLUNMASI VƏ İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ

**İxtisas: 5311.01– Müəssisələrin təşkili və idarə olunması**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2018**

Dissertasiya işi Odlar Yurdu Universitetinin "Biznes, iqtisadiyyat və menecment" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Aydın Hidayət oğlu Səmədov**
İqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Gəncəli Əziz oğlu Gənciyev**
iqtisad üzrə elmlər doktoru, professor

**Ələsgər Bərxudar oğlu Sarıyev**
İqtisad üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Marketinq və kənd təsərrüfatı məhsulları bazarının inkişafı" və "Aqrar siyasət və sahibkarlığın inkişafı" şöbələri

Müdafiə 30 iyun 2018-ci il tarixdə saat ___-da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elektron kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ________ 2018-ci ildə göndərilmişdir.

**D.01.211. Dissertasiya**
**Şurasının elmi katibi:** **dosent E.A.Şıxəliyev**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir şəraitdə Azərbaycan Respublikasının strateji yol xəritəsinə əsaslanaraq respublikanın bütün regionları, o cümlədən Naxçıvan MR strateji problemlərini sossial-iqtisadi inkişafın dövlət proqramına istinad edərək həll edir. Regionda bazar proseslərinin öyrənilməsinin aktuallığı ictimai, o cümlədən siyasi, iqtisadi və mədəni inkişafın qloballaşmasının müasir tendensiyaları ilə şərtlənir. Qloballaşma prosesində dövlət hakimiyyəti institutlarının transformasiyası baş verir. Dövlət funksiyalarının bir hissəsi daha yuxarı iyerarxik səviyyəyə, digər hissəsi isə ümumdünya, beynəlxalq-regional təşkilatlar və transmilli korporasiyalar səviyyəsinə keçid alır. Bu zaman ayrı-ayrı regionların hüquqlarının genişlənməsi tendensiyası müşahidə olunur və beynəlxalq münasibətlərdə müstəqil subyektlər kimi regionlar çıxış edirlər. Bir çox Avropa dövlətləri bu yolla gedir. Ola bilsin ki, gələcəkdə belə model dünya miqyasında da geniş inkişaf tapacaq və beynəlxalq münasibətlərdə milli dövlətlərin yerinə regionlar dominantlıq edəcəklər. Hüquqi dövlətlərdə bir çox regionlar artıq dünya rəqabətində müstəqil oyunçulara çevrilmiş, onların iqtisadi potensialı isə hətta böyük dövlətlərlə belə müqayisə oluna bilər. Bazar proseslərinin qloballaşması ictimai istehsalda regional amillərin rolunu gücləndirmişdir. Dünya coğrafi-iqtisadi sistemində yeni inkişaf strategiyalarının özülü kimi, yerli xüsusiyyətlərdən istifadə edən regional iqtisadi qruplaşmaların yaranması tendensiyası müşahidə olunur. Beynəlxalq iqtisadi münasibətlərdə qloballaşma və regionallaşma prosesləri arasındakı optimal nisbəti yaratmaq qabiliyyətinə malik olan dövlətlər üstünlük əldə edirlər. Regional xüsusiyyətlərin xüsusiləşməsi, təcrid olunması son onillikdə tam blokada şəraitində olan Naxçıvan MR üçün də istisna deyildir. Lakin problem təkcə siyasi və iqtisadi hakimiyyətin nəticəsi kimi nəzərdən keçirilən məkan bərabərsizliyində deyil. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, istehsal və ticarət yüksək dərəcədə, transregional və transmilli korporasiyalardan ibarət olan mezastrukturlar vasitəsi ilə nəzarətdə saxlanılır. Hakimiyyətə və yerləşmə qərarlarının beynəlxalq aspektinə diqqət yetirilməməsi isə regional siyasətdə bir sıra səhvlərlə nəticələnir. Alimlər hesab edirlər ki, məkan bərabərsizliyi problemləri iqtisadi və siyasi hakimiyyətin yenidən bölüşdürülməsi, funksional və ərazi inteqrasiyası arasında balansın bərpa edilməsi yolu ilə həll oluna bilər. Bir çox siyasətçi və tədqiqatçıların regional siyasət anlayışları məhz mərkəz və regionlar arasında hakimiyyətin yenidən bölüşdürülməsi məsələlərinə istiqamətlənir.

Bazar şəraitində regional siyasətdə strategiyanın seçimi həm sahibkarlar, həm də dövlət orqanları və siyasətçilər üçün mürəkkəb məsələdir. Buna görə

də xaricdə çox sayda konsultasiya mərkəzləri mövcuddur. Müxtəlif ölkələrin təcrübələri daimi olaraq ümumiləşdirilir, verilmiş problem üzrə geniş ədəbiyyat, Avropa siyasəti üzrə tədqiqat mərkəzinin sorğu kitabçaları nəşr etdirilir, müasir hesablama texnikasından istifadə etməklə elmi müşaiyətin müxtəlif metodları işlənib hazırlanır. Bu baxımdan, regionlarda bazar proseslərinin sistemli tədqiqi aktual problemdir. Muxtar Respublikanın blokada vəziyyəti şəraitində isə zəruri və vaxtında qaldırılmış məsələdir.

**Problemin öyrənilmə dərəcəsi.** Son illərdə bir çox xarici və yerli alimlər müxtəlif aspektlərdən regional problemlərin tədqiqinə ciddi diqqət yetirirlər. Xarici alimlər arasında tədqiq olunan problem üzrə aşağıdakı alimlərin fundamental əsərlərini qeyd etmək olar: N.B.Baqrov, M.P.Burov, A.Q.Qranberq, R.A.Fatxutdinov, V.A.Derqaçev, A.V.Evsenko, R.R.Oreşin, Q.V.Dvas, N.B.Junda, V.E.Çirkin, İ.N.Şapkin S.Hollensen, A.S.Novoselov, O.M.Şestoperov və b.

Yerli alimlər arasında isə Ə.X.Nuriyevin, Ə.Q.Əlirzayevin, İ.M.Hacıyevin Ş.M.Muradovun, N.H.Əhmədovun, S.A.Abbasovun və başqalarının adını çəkmək olar.

Regional tədqiqatlar sahəsində xarici və yerli mütəxəssislər öz əsərlərində əsas etibarı ilə regionlarda bazar prosesləri ilə bağlı ümumi və spesifik məsələləri nəzərdən keçirirlər. Xüsusilə, qərb alimlərinin gəldikləri nəticələr Naxçıvan MR kimi özünəməxsus xüsusiyyətlərə malik olan bir region üçün universal tövsiyələr kimi əsas ola bilməz. Yerli alimlərə gəldikdə isə onlar bir qayda olaraq, verilmiş regionun bazar proseslərinin müəyyən aspektlərini nəzərdən keçirirlər.

Ümumilikdə, respublikada muxtar regionun bazar proseslərinin tədqiqi sistemli xarakter daşımır və bu da həmin sahədə yeni tədqiqatların aparılmasını zəruriləşdirir.

Yuxarıda qeyd olunanlar dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmiş və müəyyən etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi bazar proseslərinin sistemli tədqiq edilməsi və Naxçıvan MR-nın regional inkişafının prioritet istiqamətlərinin işlənib hazırlanmasından ibarətdir. Tədqiqatın məqsədinə uyğun olaraq qarşıya aşağıdakı məsələlər qoyulmuş və həll edilmişdir:

- regionda bazar proseslərinin tədqiqinin konseptual əsaslarının müəyyən edilməsi və işlənib hazırlanması;
- xarici mühitin qeyri-stabilliyi şəraitində regional artım nəzəriyyəsinin tətbiqi;
- regionda bazar proseslərinin tədqiqinin metodlar sisteminin işlənib hazırlanması;

- tədqiq olunan regionun metodiki üsullarının və onun xüsusiyyətlərinin aşkar edilməsi;

- regionda bazar proseslərinin sahə təhlilinin həyata keçirilməsi;

- makroiqtisadi səviyyədə regionun bazar proseslərinin diaqnostikası;

- bazar proseslərinin regionlararası əlaqələrinin kompleks tədbirlər strategiyası və konsepsiyasının işlənib hazırlanması;

- regionda bazar proseslərinin səmərəli elementlərinin müəyyən edilməsi və tətbiqi;

- kommersiya riski şəraitində bazar prosesinin indeks regional göstəricilərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekt və predmeti.** Tədqiqatın obyekti Naxçıvan MR bazar prosesləri sistemi, predmeti isə xüsusiləşmiş regionda bazar proseslərinin sistemli tədqiqi sahəsində fəaliyyətinin sosial-iqtisadi mexanizmləridir.

**İşin nəzəri və metodoloji əsası.** İşin nəzəri əsası özünə müasir klassiklərin regionşünaslıq sahəsindəki başlıca müddəalarını daxil edir. Dissertasiya işinin metodoloji bazası kimi, regionda bazar proseslərinin sistemli tədqiqi sahəsinə konseptual yanaşma çıxış edir. Tədqiqatda sistemli yanaşma və təhlil metodundan, təhlilin iqtisadi və riyazi metodlarından, təşkilati və qrafik modelləşdirmədən istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Respublikanın İqtisadi İnkişaf Nazirliyinin məlumatları, Naxçıvan MR-nın bir sıra statistik və praktik materialları, ölkənin Milli Məclisinin qanunverici və hüquqi aktları təşkil edir.

Dissertasiya işində həmçinin təhlilin həyata keçirilməsi nəticəsində əldə edilmiş şəxsi materiallardan da istifadə olunmuşdur.

**Dissertasiya işinin elmi yeniliyi** ondan ibarətdir ki, burada bazar proseslərinin sistemli tədqiqinin həyata keçirilməsinə və Muxtar Respublikanın regional inkişafının prioritet istiqamətlərinin aşkar edilməsinə cəhd edilmişdir. Dissertasiyanın elmi yeniliyinin əsas müddəaları aşağıdakılardan ibarətdir:

- regionda bazar proseslərinin tədqiqinə konseptual yanaşma ifadə olunmuşdur;

- xarici mühitin qeyri-stabilliyi şəraitində regional artım nəzəriyyəsinin tətbiqinin əsas istiqamətləri müəyyən edilmişdir;

- Naxçıvan Muxtar Respublikasında bazar proseslərinin müasir vəziyyətinin sistemli təhlili aparılmış və diaqnostikası müəyyən edilmişdir;

- bazar proseslərinin başlıca inkişaf istiqamətləri və kommersiya riski şəraitində regional strategiya işlənib hazırlanmışdır.

**Tədqiqatın praktiki əhəmiyyətliliyi.** Dissertasiya işinin əsas yekunları və praktiki tövsiyələr elmi əsaslandırılmış yazılar şəklində aidiyyatı orqanlara təqdim edilmiş və praktiki tətbiqə qəbul olunmuşlar (arayış №01/110, 01 mart 2018).

Bundan başqa, dissertasiya işində mövcud olan bir sıra müddəa və tövsiyələr Naxçıvan Muxtar Respublikasında ayrı-ayrı firmalar tərəfindən praktiki cəhətdən bəyənilmiş və praltiki olaraq tətbiq edilmişdir.

**Tədqiqatın aprobasiyası və nəticələri** beynəlxalq, respublika və ali məktəb elmi-praktiki konfrans və seminarlarında təqdim edilmişdir. Dissertasiyanın müddəa və nəticələri müəllifin praktiki fəaliyyəti zamanı aprobasiya edilmiş və "Odlar Yurdu" Universitetində müzakirə olunmuşdur.

Dissertasiyanın əsas müddəaları doktorantın elmi məqalə və tezislərində, o cümlədən elmi-praktiki konfransların materiallarında və jurnallarda nəşr etdirilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyatlar siyahısından ibarətdir, eyni zamanda özündə 15 şəkil və 40 cədvəli ehtiva edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallğı, tədqiqatın məqsədi və vəzifələri, predmeti, problemin öyrənilmə səviyyəsi, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, işin aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiyanın **"Regionda bazar proseslərinin tədqiqinə konseptual yanaşma"** adlanan birinci fəsli 3 yarımfəsildən ibarətdir. **"Bazar proseslərinin regional tədqiqi metodologiyası"** adlanan birinci yarımfəsildə qeyd olunur ki, regionun sosial-iqtisadi prosesləri özündə tərkib elementlərinin rəngarəngliyi ilə xarakterizə olunan və müxtəlif bazar proseslərində birləşən mürəkkəb sistemi əks etdirir. Ümumi şəkildə sosial-iqtisadi prosesləri, o cümlədən regionun bazar proseslərini istehsal, mübadilə, bölgü və yenidən bölgü, son nəticədə isə sosial və maddi nemətlərin istehlakı üzrə sosail və istehsal münasibətləri sistemi kimi müəyyən etmək olar. Bu mürəkkəb metodoloji məsələlərin həlli üçün sistemli yanaşmanı tətbiq etməklə dərin tədqiqatlar aparılmalıdır. Sistemli yanaşmanın nəzərə alınması ilə müəyyən proseslərin qarşılıqlı təsiri onun müxtəlif kombinasiyalı formalarının meydana çıxmasına şərait yaradır: informasiya-iqtisadi, istehsal-iqtisadi, innovasiya-iqtisadi, siyasi-iqtisadi, sosial-iqtisadi və təşkilati-iqtisadi.

Təbii və ictimai proseslər arasındakı əlaqə bazar və instutisional tənzimləmə prosesləri ilə vasitələnir. Sosial-iqtisadi proseslər sahəsində bu, iqtisadiyyatın vəziyyətində arzu olunan dəyişikliklərin təmin edilməsi üçün təbii və ictimai proseslərə məqsədəuyğun təsiri ifadə edir. Sosial-iqtisadi proseslər sosial-iqtisadi sistemin fəaliyyətinin mövcud istehsal gücündən və başqa resurslardan istifadə səviyyəsi, məhsulların rəqabət qabiliyyətliliyi və onların istehsal həcmi, mənfəət və ödəniş qabiliyyətliliyisəviyyəsi, əməyin effektivliyi və onun ödənilməsi səviyyəsi üzrə ilkin və törəmə effektiv göstəricilərin dəyişməsi dinamikası ilə xarakterizə olunur. İqtisadiyyatın faktiki vəziyyətini əks etdirən göstəricilərin təhlili və qiymətləndirilməsi əsasında həm strateji, həm də bazarın vəziyyətinin dəyişməsi prosesində, real sosial-iqtisadi proseslərlə şərtlənən və yaranmış tendensiyalardan asılı olaraq elmi-texniki və sosial amilləri nəzərə alan mümkün dəyişikliklər proqnozlaşdırılır.

Dissertasiya işində regional proqnozlaşdırmada sistem-struktur yanaşmasından istifadə olunur. Bu yanaşma bir tərəfdən sistemin (verilmiş halda regionun) dinamik inkişaf edən bütöv kimi nəzərdən keçirilməsini, digər tərəfdən isə sistemin (regionun) struktur elementlərinin qarşılıqlı təsirdə parçalanmasını nəzərdə tutur. Çünki hər bir struktur elementi həm bütün digər elementlərlə, həm də ümumi sistemə təsir göstərir.[1] Sosial-iqtisadi və bazar proseslərinin ikili, həm yeni idarəetmə təsirlərinin obyekti, həm də bu təsirlərin həyata keçirilməsi prosesləri kimi rolunu da qeyd etmək lazımdır. Bu nöqteyi-nəzərdən sosial-iqtisadi proseslərin funksional təyinatı və məqsədli istiqamətliliyindən asılı olaraq, onları üç qrupda fərqləndirmək olar:

Birinci qrup iqtisadi dövrün fazaları ilə şərtlənən və nəzərdən keçirilməsi qəbul olunmuş prosesləri əhatə edir. Onlar antiböhran tənzimlənməsi – ödəniş qabiliyyətinin olmaması və müflisliyin qarşısının alınması, ləğv edilməsi, istehsalın tənəzzülünün dəf edilməsi, stabilliyə nail olunması və rəqabət qabiliyyətli məhsul və xidmətlərin həcminin artırılması tədbirlərinin həyata keçirilməsinə istiqamətlənir.

İkinci qrup qiymətqoyma, vergiyə cəlb olunma, kreditləşmə və əmtəə istehsalçılarının texnoloji bazasının inkişafına investisiya qoyulması kimi effektiv iqtisadi tənzimləyicilərdən optimal istifadə edilməsinin zəruriliyi ilə şərtlənən ümumi iqtisadi prosesləri əhatə edir.

Üçüncü qrup mövcud təbii maddi, əmək və maliyyə resurslarından istifadənin yaxşılaşdırılmasına istiqamətlənmiş prosesləri əhatə edir.

---

[1] В.В.Егоров. Прогнозирование национальной экономики. М.: ИНФРА- М, 2001, с. 18.

Müəllifin fikrincə, bu təsnifata dördüncü bir qrup da daxil etmək olar ki, bu qrupa da regionlardakı bazar prosesləri daxildir. Belə yanaşma onunla əsaslanır ki, istənilən sosial-iqtisadi proses, o cümlədən bazar prosesi, müəyyən ərazi və regionda baş verir. Bu baxımdan, həm qlobal regionlarda, həm də yerli regionlarda idarəetmə və tənzimləmə məsələləri ilə bağlı proseslər baş verir.

Dövlət tənzimlənməsinin formaları müxtəlifdir: bazar münasibətlərini tənzimləyən çərçivə dövlət qanunvericiliyi; bazarda "davranış qaydalarının" təyin edilməsi; vergi sistemi; dövlət proqramları; dövlətinvestisiyaları və dotasiyalar; antiinhisar və kredit siyasəti; rəqabətin inkişafına yardım; gömrük tarifi və rüsumları; müvəqqəti işləməyənlərə iş axtarışı və yeni peşənin mənimsənilməsi dövründə maddi kömək; investisiya siyasəti və başqaları.

"**Regional artım nəzəriyyəsi və xarici mühitin qeyri-stabillik mərhələsində onun başlıca istiqamətləri"** adlanan ikinci yarımfəsildə göstərilir ki, regional artım problemlərinin tədqiqini xarici mühitin qeyri-stabilliyinin nəzərə alınması ilə həyata keçirmək lazımdır. Xarici dünyada baş verən bugünki dəyişikliklər xarici mühitə daha böyük diqqət ayırmağa vadar etmişdir. Bu haqda son illərdə dünyada baş verən iqtisadi və maliyyə böhranları xəbər verir. Buna görə də regional artım məsələləri xarici mühitin qarşılıqlı əlaqəliliyi faktorlarına əsaslanmalıdır. Bununla əlaqədar M.Mekson, M.Albert və F.Hedouri kimi qərb alimlərinin fikirlərini düzgün hesab etməliyik. Onların fikrincə, xarici mühit amillərinin qarşılıqlı əlaqəliliyi özündə, bir amilin dəyişməsinin başqa amillərə də təsirinin güc səviyyəsini əks etdirir.[2] İstənilən daxili dəyişənin dəyişilməsi başqalarının da dəyişməsinə gətirib çıxardığı kimi, mühitin bir amilinin dəyişməsi də digərlərinin dəyişməsinə yol açır. Xarici ətraf mühit regionla siyasət prinsipləri üzrə formalaşır: iri ərazi icmaları üzrə, onların geosiyasi, tarixi, sosial-mədəni və iqtisadi xüsusiyyətlərini nəzərə alan dövlət siyasəti üzrə və s.

Regional siyasət mərkəzi hakimiyyət və regionların münasibətlərini tənzimləyir, siyasi-inzibati vahidlərin səlahiyyətlərini müəyyən edir. Regional sistem özünə aşağıdakı istiqamətləri daxil edir: regional sosial-iqtisadi və başqa inkişaf uyğunsuzluqlarının tarazlaşdırılması; siyasi və sosial stabilliyə, iqtisadi effektivliyə nail olunması; əmək resurslarından səmərəli istifadə olunması; periferiya resurs-xammal regionlarının inkişafı; demoqrafik siyasət; innovasiya siyasəti, ekoloji siyasət və s.[3]

---

[2]М.Мескон, М.Альберт, Ф.Хедоури. Основы менеджмента. М.: Дело, 1992, с. 115.
[3]В.Дергачев, Л.Вардомский. Регионоведение. М.: ЮНИТИ, 2004, с. 43-45.

Bu yarımfəsildə qeyd olunur ki, regional siyasət hər şeydən əvvəl, bu və ya digər bazar proseslərinin inkişafından asılıdır. Bununla əlaqədar olaraq bazar münasibətlərinin başlanğıc mərhələsindəki regional siyasətə və formalaşmış bazarmünasibətləri mərhələsinə ayırmaq olar. Misal üçün, Azərbaycan Respublikası artıq yuxanda göstərilmiş mərhələləri keçmişdir. Bundan başqa, yenidən bölüşdürücü və stimullaşdırıcı regional siyasətlər də fərqləndirilir. Belə ki, yenidən bölüşdürücü regional siyasət donor regionlar hesabına tənəzzül vəziyyətində olan ərazilərə maliyyə yardımının göstərilməsinə istiqamətlənir. Vergi və başqa növdən olan preferensiyalar geniş yayılmışlar. Bu da tez-tez dövlət büdcəsinin kəsirini çoxaldır. Eyni zamanda, stimullaşdırıcı regional siyasət müstəqil inkişafı həvəsləndirir. Belə siyasət əsas etibarı ilə yüksək dərəcədə inkişaf etmiş dövlətlər üçün xarakterikdir və subsidiya ödənilməsi prinsipinə əsaslanır. Regional inkişaf üçün preferensiya güzəştlərinin yaradılmasına istiqamətlənmiş dövlət siyasəti dövlət proteksionizmi siyasəti adlanır. Mərkəzə münasibətdə qeyri-inteqrasiya xarakterli yerli siyasət, regionun statusunun yeni milli dövbtin elan edilməsinə qədər yüksəldilməsi regional separatizmin təzahürüdür. Regional artımı iqtisadi təhlükəsizlik nəzəriyyəsi ilə əlaqələndirmək olar. Qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizlik nəzəriyyəsinin tətbiqi metodikası çox sadədir: $\beta$ faktiki göstəricisinin $\beta^1$ ilkin qiyməti ilə müqayisəsi aparılır və faktiki göstəricinin mənfi tərəfə kənarlaşma dərəcəsindən asılı olaraq, bu və ya digər aspekt üzrə dövlət siyasətinin dəyişdirilməsi haqqında qərar qəbul olunur. Ancaq region sosial-iqtisadi sistemlərin idarə edilməsi sisteminin məqsədli blokunun formalaşdırılması üçün bu metodikanın praktiki tətbiqi çox çətindir: artıq qeyd edildiyi kimi, təhlükəsizlik nəzəriyyələrinin növ müxtəliflikləri və alt növlərinin sayı həddən artıq çoxdur. Dünya üzrə təhlükəsizlik kriteriyalarının qiymətləndirilməsi üzrə elmi müzakirə, demək olar ki, başlanğıc mərhələdədir. Buna görə də regional sosial-iqtisadi sistemin inkişafının idarə edilməsinin məqsədli blokunun formalaşdırılması üçün iqtisadi təhlükəsizlik nəzəriyyəsinin effektiv tətbiqini istisna edən ilkin səbəb vahid metodiki aparatın mövcud olmamasıdır. İkinci çətinlik həyat keyfiyyətli nəzəriyyəsinin tətbiqi variantı ilə oxşardır – regionun mövcud iqtisadi təhlükəsizlik göstəricilərinin konkret idarəedici təsirlərdən korrelyasiyaedici asılılığının mövcud olmasındadır. Nəhayət, üçüncü və ola bilsin ki, ən mühüm səbəb – regional sosial-iqtisadi sistemin inkişafının idarə edilməsi sisteminin məqsədli blokunun formalaşdırılması üçün iqtisadi təhlükəsizlik nəzəriyyəsinin tətbiqi metodologiyası seçilmiş məqsədlərin mövcud resurslarla uyğunluğunun təhlilini həyata keçirməyə imkan vermir. Nəticə etibarı ilə, iqtisadi təhlükəsizlik nəzəriyyəsindən istifadə etməklə regionun vəziyyətini qiymətləndirmək və cari

vəziyyətin arzu edilən inkişafsəviyyəsinə uyğunluğu haqqında qərar vermək olar. Lakin regionun sosial-iqtisadi inkişaf məqsədlərinin formalaşdırılması üçün təhlükəsizlik nəzəriyyəsinin böyük növ müxtəliflikləri içərisindən konkret olaraq hər hansı birini seçmək həddən artıq çətindir.

Beləliklə, xarici mühitin qeyri-stabilliyi mərhələsində regional artımın nəzəri əsaslarının həyata keçirilmiş tədqiqi və təhlili belə bir yekun çıxarma-ğa imkan verir ki, verilmiş problemin regional miqyasda praktiki reallaşdırılmasında onun bütün istiqamətlərindən kompleks şəkildə istifadə etmək, onların nisbətini isə yerli regional şəraitlə əlaqələndirmək lazımdır.

“**Regionda bazar proseslərinin tədqiqinin metodlar sistemi”** adlanan üçüncü yarımfəsildə qeyd olunur ki, bazar proseslərinin regional tədqiqi metodlarının seçilməsi idarəetmə nəzəriyyəsinin prinsiplərinə əsaslanan başlıca risk-menecment aksiomlarına istinad edir: “risksiz zona (region)” və “mütləq risk zonası (regionu)”. Risk-menecmentin ilk və əsas aksiomu “risksiz zona (region)” və “mütləq risk zonası (regionu)” əksliklərinin aradan qaldırıla bilinməməsi iddiası hesab olunur. Risk-menecmentin ilk və əsas aksiomu kimi risklərin ümumiliyi haqqında müddəanı irəli sürmək olar. Bu iddiaya görə, risklər bu və ya digər dərəcədə bütün elementlərdə və regionun xarici və daxili mühitinin bütün fəaliyyət sahələrində mövcud olur. Bundan başqa, regional tədqiqatlar üzrə risk-menecmentin başqa aksiomlarını da fərqləndirmək olar:

- istənilən risk meydana çıxa, inkişaf edə və müəyyən məkan (region) və zaman daxilində fəaliyyət göstərə bilər;
- istənilən risk öz daxili məkanına (regionuna) və zamanına malikdir;
- risklərin mövcud olma müddəti sonsuz böyük ola və ya sıfıra bərabər ola bilməz.[4]

Bütün bunlar xüsusi olaraq həm yerli, həm də beynəlxalq bazarlar üçün düzgündür. Belə ki, xarici bazarlara çıxışın hər bir səbəbi, xüsusilə bazarın qloballaşması şəraitində özündə müəyyən təhlükələri gizlədir.

Birincisi, kompaniya xaricdə artım imkanı axtararaq milli bazarda rəqabətin güclənməsi ilə qarşılaşmağa risk edir; ikincisi, ticarət baryerlərinin azaldılması yeni imkanlar yaratsa da, bu, həm də rəqabətin kəskinləşməsinə də gətirib çıxara bilər; üçüncüsü, bazarların qloballaşması, ola bilsin ki, özündə dünya markalarının yaradılması şansını əks etdirsə də o, həmçinin kompaniyaları marketinq stategiyalarını standartlaşdırmağa və yerli əhəmiyyətli fərqlərə laqeydlik göstərməyə vadar edə bilər. İstənilən halda bütün

---

[4]А.Фомичев. Риск-менеджмент. М.: Дашков и К., 2008, с. 94-95.

riskli vəziyyətlər regional bazarlarda meydana çıxır. Buna görə də müasir bazar nəzəriyyəsinin öyrənilməsi problemi iqtisadiyyatı bazar əsasında fəaliyyət göstərən regionlar üçün müstəsna olaraq mühümdür. Bazar münasibətlərinin mahiyyətinin təyin edilməsi zamanı onu nəzərə almaq lazımdır ki, bazar anlayışı ən geniş yayılmış iqtisadi kateqoriyalardan biridir. Lakin buna baxmayaraq, bu günə qədər onun vahid bir tərifi yoxdur.

Bazar anlayışı çox tərəfli və çoxüzlüdür və ictimai istehsal və mübadilə inkişaf etdikcə bazar da dəfələrlə dəyişikliklərə uğramışdır. Bazarın mübadilə sferası və konkret iqtisadi münasibətlərin məcmusu kimi tərifləri arasında prinsipial fərqlər mövcuddur: birinci halda vurğu bazar münasibətlərinin obyektinə – əmtəə-material qiymətliləri və pul vəsaitləri; ikinci halda isə "bazar" kateqoriyasının mahiyyətinin ifadə edən münasibətlər üzərinə düşür. Bu gün bazar təsərrüfat subyektləri arasında təsərrüfat əlaqələri tipi nəzərdən keçirilir. Təsərrüfat əlaqələrinin iki tipi mövcuddur: tələbatların həcm və strukturuna uyğun olaraq əvəzsiz təbii-madii əlaqələr və bazar vasitəsilə həyata keçirilən əmtəə tipli əlaqələr. Sonuncunun xarakterik cəhətləri kimi mübadilə edən tərəflərin qarşılıqlı razılığı, ekvivalent əvəzlənmə, partnyorların azad seçimi və rəqabətin mövcud olması çıxış edir. Bu əlaqələr yalnız əmtəə və xidmətlərin sərbəst alqı-satqısı əsasında həyata keçirilə bilərlər.[5] Bizim fikrimizcə, regionlarda risk şəraitində bazar proseslərinin tədqiqində bazarın tərifinin verilməsinə bir qədər başqa yanaşma lazımdır. Bu mövqedən biz belə bir fikrə əsaslanırıq ki, bazarın ən tam və dəqiq tərifi əmtəə-pul mübadiləsi anlayışı ilə üst-üstə düşür.

Dissertasiyanın **"Naxçıvan Muxtar Respublikasında bazar proseslərinin müasir vəziyyətinin sistemli təhlili və diqnostikası"** adlanan ikinci fəsli 3 yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə qeyd olunur ki, kommersiya riski şəraitində bazar proseslərinin regional tədqiqatları metodiki üsulların seçilməsində özünə bir sıra xüsusiyyətləri daxil edir. Bizim tədqiqatlarda bu müddəanı artıq təbbin regionlarda kommersiya riskinin səviyyəsinə təsirinin müəyyən edilməsi nümunəsində təqdim etmək olar. Bazar proseslərinin sonrakı tədqiqatları regionlarda təklifin öyrənilməsi ilə bağlıdır. Nəzəriyyədən məlumdur ki, tələbə qarşı əmtəə və xidmət istehsalçılarının təklifi, daha doğrusu, müəyyən zaman üçün və müəyyən regionda bazara konkret qiymət üzrə təklif olunan əmtəələrin miqdarı duru, əmtəə təklifinin həcmi isə özünə topdan və pərakəndə ticarətdə, habelə yolda olan əmtəələri daxil edir.

---

[5]Теоретическая экономика. Под ред. Г.П.Журавлевой, Н.Н.Мильчаковой. М.: Банки и биржи, ЮНИТИ, 1997, с. 70-75.

Regional aspektdə daxili bazarda təklifin əsas mənbəyi kimi, milli iqtisadiyyatın istehsal sferası çıxış edir. Regional bazarda təklifin həcmi bir çox amillərdən asılıdır və bu amillər arasında aşağıdakıları fərqləndirmək olar: reallaşdırılan əmtəələr üzrə qiymətlərin dinamikası; istehsalın maya dəyəri; əmtəə istehsalçılarının sayı.

"**Regiondakı bazar proseslərinin sahə təhlili**" adlanan ikinci yarımfəsildə göstərilir ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-inkişaf, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır. Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;
- infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsi;
- iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsi;
- ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması;
- müasir tipli infrastruktur obyektlərinin yaradılması və onların beynəlxalq standartlara uyğunlaşdırılması;
- əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- yoxsulluğun səviyyəsinin azaldılması.[6]

Qəbul olunmuş Dövlət Proqramına uyğun olaraq Naxçıvan MR regional cəhətdən inkişaf etmişdir. Yerli alimlər tərəfindən son illərdə məşğulluq və işsizlik problemləri üzrə bir sıra fundamental tədqiqatlar aparılmışdır. Qeyd etmək lazımdır ki, ancaq regional miqyasda onlar daha dərin təhlil tələb edirlər.[7] Yeni iş yerlərinin açılması yeni müəssisə və firmaların yaradılmasını da tələb etmişdir.

---

[6] "Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı", 14 aprel, 2009-cu il. http://dgk.nmr.az/files/uploader/2009.04.14_80.pdf

[7] N.Əhmədov. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: Əcəmi, 2015, 272 s.; Ş.Muradov. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 660 s.

İkinci fəslin "**Müəssisələr səviyyəsində bazar proseslərinin diaqnostikası**" adlanan 3-cü yarımfəslində bazar proseslərində müəssisə və müxtəlif sahibkarlıq strukturlarından bəhs olunur. Sahibkarlıq strukturları və Muxtar Respublika hakimiyyətinin qarşılıqlı münasibətlərinin radional siyasətinin mahiyyətini aydınlaşdırmaq üçün makroiqtisadi səviyyədə müəssisələrin bazar mühitində davranışını nəzərdən keçirək. Naxçıvan MR-nın sənaye müəssisələrinin təhlilindən başlayaq. Yalnız 2000-2016-cı illər ərzində onların sayı 40-dan 134-ə, sahibkarlıq strukturlarının sayı – 183-dən 711-ə, işçilərin orta siyahı sayı – 4181-dən 16525-ə, yeni işçilərin qəbulu- 283-dən 2064-ə, sənaye işçilərinin orta aylıq əmək haqqı – 33,5 manatdan 370,8 manata qədər yüksəlmişdir.[8] Eyni zamanda tədqiq olunan dövr ərzində Naxçıvan MR-nın sənaye müəssisələrinin başlıca iqtisadi göstəriciləri də yaxşılaşmışdır. Xüsusi halda, sənaye məhsulu buraxılışının həcmi 13,8 mln. manatdan 942,9 mln. manata qədər və ya 62,5 dəfə artmışdır. 2016-cı ildə sənayedə qeyri-dövlət sektorunu xüsusi çəkisi 95,6%-ə çatmışdır (bax: cədvəl 1).

**Naxçıvan MR sənaye müəssisələrin əsas iqtisadi göstəriciləri [8, s. 10, s. 164; 11, s. 299].**

**Cədvəl 1**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2013 | 2016 |
|---|---|---|---|---|---|
| Sənaye məhsulunun həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, mln.m. | 13,8 | 41,2 | 318,6 | 862,9 | 942,9 |
| Əvvəlki illərə nisbətən, % | 107,2 | 159,2 | 144,4 | 106,3 | 101,7 |
| Qeyri-sektorun xüsusi çəkisi, % | - | 66,6 | 87,7 | 92,6 | 95,6 |
| Yüklənmiş mallar, mln.m. | 12,3 | 34,0 | 316,8 | 861,0 | 940,7 |
| İstehsal edilmiş məhsulun ilin axırına qalığı, min m. | 418,6 | 92,7 | 2099 | 1909 | 2508 |
| İstehsal edilmiş məhsulun fəaliyyət növləri üzrə bölgüsü, mln.m. | 13,5 | 41,2 | 318,5 | 862,7 | 942,9 |

Muxtar respublikanın sənaye müəssisələrinin istehsal fondlarının vəziyyəti də əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. 2000-2016-cı illər ərzində sənaye-istehsal fondlarının həmi 89,5 mln. manatdan 881,5 mln. manata qədər və ya 9,5 dəfə artmışdır. Faiz nisbətində əsas fondların yenilənməsi 0,04-dən 5,6-ya qədər yüksəlmişdir (bax: cədvəl 2).

---

[8] Azərbaycanın sənayesi. ARDSK. Bakı: Səda, 2007, s. 164; Azərbaycanın sənayesi. ARDSK. Bakı: Səda, 2014, s. 299

**Naxçıvan MR sənaye müəssisələrinin istehsal göstəriciləri [11, s. 299].**

**Cədvəl 2**

| Göstəricilər | 2000 | 2005 | 2007 | 2008 | 2016 |
|---|---|---|---|---|---|
| Əsas sənaye-istehsal fondlarının mövcudluğu, mln.m. | 89,5 | 120,6 | 719,2 | 850,3 | 881,5 |
| Əvvəlki ilə nisbətən, % | 99,9 | 110,1 | 102,6 | 105,6 | 105,9 |
| Əsas fondların yeniləşməsi, % | 0,04 | 11,7 | 27,4 | 18,1 | 5,6 |
| Əsas fondların sıradan çıxması, % | 0,23 | 5,3 | 2,21 | 1,1 | 0,2 |
| Enerji materiallarından başqa, faydalı qazıntıların təsnifatı, min m. | 96,0 | 233,5 | - | - | - |

İşdə qeyd olunur ki, son illər ərzində Naxçıvan MR-da tikinti müəssisələri güclü templə inkişaf edir. Yalnız 2006-2016-cı illər ərzində tikinti müəssisələrinin sayı 52-dən 41-ə qədər azalsa da, işçilərin sayı 3327-dən 12513-ə, öz vəsaitləri ilə yerinə yetirilən işlərin həcmi isə 64802,3 min manatdan 703710,3 min manata qədər yüksəlmişdir (bax: cədvəl 3).

**Fəaliyyət göstərən tikinti müəssisələrinin Naxçıvan MR üzrə əsas göstəriciləri (bütün maliyyə mənbələri hesabına) [9, s. 563].**

**Cədvəl 3**

| İllər | Fəaliyyət göstərən ilkin müəssisələrin sayı, ədəd | Öz gücləri ilə görülmüş tikinti işlərin həcmi, faktiki qiymətlə, min manat | Məşğul olan işçilərin orta siyahı sayı, nəfər |
|---|---|---|---|
| 2006 | 52 | 64802,3 | 3327 |
| 2007 | 54 | 114371,9 | 7014 |
| 2008 | 62 | 206749,8 | 8471 |
| 2013 | 46 | 745116,1 | 12171 |
| 2016 | 41 | 703710,3 | 12513 |

Dissertasiya işinin **"Bazar proseslərinin inkişafının və regional strategiyanın işlənib hazırlanmasının əsas istiqamətləri"** adlanan üçüncü fəsli də 3 yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "**Bazar proseslərinin regionlararası əlaqələrinin kompleks tədbirlərinin strategiya və konsepsiyası"** adlanır. Regionlarda strateji xarakterli sənədlərin işlənib hazırlanması təcrübəsinin təhlil göstərir ki, tez-tez təşəbbüskar və iştirakçılar strateji planlaşdırmanın məqsəd və vəzifələri, metodika və texnologiyaları, bu fəaliyyətin nəticəsində məhz nəyin əldə olunacağı haqqında dəqiq təsəvvürə malik olmurlar. Bu səbəbdən işlənib hazırlanan strateji xarakterli sənədlər əhəmiyyətli dərəcədə həm adlarına, həm də daxili tərkiblərinə görə fərqlənir-

lər. Strategiya konsepsiyaları, strateji planlar, sosial-iqtisadi inkişaf üzrə kompleks proqramlar və s. işlənib hazırlanır.

Bütün bunlar istifadə olunan terminləri dəqiqləşdirməyə imkan yaradacaq müzakirələrin həyata keçirilməsinin, bələdiyyə qurumlarının sosial-iqtisadi inkişafını istiqamətləndirməyə çalışan plan və proqram növlərinin ixtisar edilməsinin zəruriliyi fikrinə gətirib çıxarır.

Artıq bələdiyyə qurumlarına münasibətdə inkişaf anlayışının özü kifayət qədər çox müzakirələrə səbəb olur və bu məsələ o səbəbdən mürəkkəbləşir ki, müzakirədə iştirak edən tərəflər bu terminə müxtəlif mənalar verir. Bələdiyyə idarəetməsi sahəsindəki bir sıra tədqiqatçıların fikrincə, bu məsələ üzrə fikir ayrılıqları üç prinsipial məsələyə gətirilir.

Birinci məsələ inkişaf terminini özünün başa düşülməsi ilə bağlıdır. İnkişaf dedikdə, adətən müəyyən dəyişiklik prosesi – biznes keyfiyyət vəziyyətindən başqa bir vəziyyəti nəzərdə tutur. Ancaq bir halda bu proses müəyyən obyektiv qanunauyğunluq kimi təsəvvür olunur. Başqa bir halda isə əksinə, inkişaf subyektin iradəsini əks etdiri.

İkinci məsələ sosial-iqtisadi inkişafın kompleksliliyi anlayışı ilə bağlıdır. Burada inkişaf anlayışına məqsədli yanaşmanın prinsipial tərəfdarları inkişafın obyektlərinə nəyi aid etmək və bu hadisənin miqyaslarının necə olduğu barəsində fikir ayrılığına malikdirlər.

Üçüncü və sonuncu məsələ bələdiyyə qurumlarının sosial-iqtisadi inkişafının təşəbbüskarı kimi çıxış etməli olan subyektin müəyyən edilməsi ilə bağlıdır. Bununla bağlı müxtəlif (bəzən isə məşhur) nöqteyi-nəzərlər eşitmək olar. Heç bir tərəf bələdiyyə qurumlarının ahəngdar şəkildə inkişaf etməli olduqlarını inkar etmir. Ancaq inkişaf subyekti kimi kimin çıxış etməli olduğu məsələsinə münasibətdə isə tərəflər müxtəlif fikirlər nümayiş etdirirlər.[9] Dissertasiya işində bu problem xüsusi region olan Naxçıvan MR timsalında daha yaxından nəzərdən keçirilib.

Regionun sosial-iqtisadi inkişaf planının strateji xarakteristikalarına aşağıdakılar aiddir: regional iqtisadiyyatın güclü və zəif tərəflərin müəyyən edilməsi, regionun rəqabət üstünlüklərini gücləndirməyə, inkişaf etdirməyə və formalaşdırmağa və hər şeydən əvvəl, insanlar üçün ən yaxşı həyat şəraitinin qurulmasına səy göstərilməsi; əmtəə və xidmət istehsalçılarını, investorları, rəhbərliyi və əhalinin oriyentasiya etdirən, gələcək inkişafın öncədən

---

[9]Н.Жунда. Стратегическое планирование в системе программ планов муниципального развития. СПб.: МЦ СЭИ, 2002, с. 50-51.

görülməsinə əsaslanaraq öz qərarlarını həyata keçirməyə kömək edən qısa ideya və prinsiplər; bütün regional güclərin qarşılıqlı tərəfdaşlıq fəaliyyətləri.

Regionun strateji inkişaf planının tərkib hissəsi kimi rəhbərliyin nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması üzrə fəaliyyəti çıxış etməlidir. Regional inkişafın strateji planının cavab verdiyi əsas sual – "sakinlərin maddi rifah səviyyəsini necə artırmaq və onun gələcəkdə də inkişaf etməsi üçün möhkəm əsasları necə qurmaq lazımdır?" kimi olmalıdır. Bundan başqa, qeyd etmək lazımdır ki, təcrübədə həmçinin regionlararası əlaqələrin və ya regionlararası əməkdaşlıqların inkişafının strateji planının xarakteristikalarına da rast gəlinir. Regionun sosial-iqtisadi inkişafının strateji planının işlənib hazırlanması mərhələləri aşağıdakıları nəzərdə tutur: nail olunmuş səviyyənin və regionun sosial-iqtisadi inkişaf xüsusiyyətlərinin qiymətləndirilməsi, həmçinin bu inkişafın regional resurs bazasının təhlili; regionun iqtisadi inkişaf konsepsiyasının işlənib hazırlanması, regional təsərrüfatların regionlararası əlaqələri və qarşılıqlı asılılıqlarının yeni sistemə adaptasiya etdirilməsi üçün müasirləşdirilməsi ssenarilərinin işlənib hazırlanması; regionun perspektiv inkişaf istiqamətlərinin seçilməsi və əsaslandırılması.

Bu istiqamətlər ilkin təhlil əsasında müəyyən olunmuş və mümkün perspektiv inkişaf ssenarilərindən asılı olaraq, regional təsərrüfat kompleksinin ixtisaslaşdırılmasının müxtəlif variantlarının hesablanmasına görə təsnifləşdirilir.

Konsepsiyanın işlənib hazırlanmasının çıxış nöqtəsi kimi, regionun inkişaf məqsədlərinin, habelə onun sahə prioritetlərinin müəyyən edilməsi çıxış edir. Regionun inkişaf etdirilməsinin əsas məqsədi kimi, regionun özü üçün kifayətliliyi, yəni onun statusu ilə müəyyən olunan tam funksiyalar dəstini müstəqil olaraq həyata keçirmək qabiliyyəti çıxış edir.

Beləliklə, müasir sosial-iqtisadi problemlərin kəskinliyini dərk edən regionlar məşğulluq, iqtisadi inkişaf və şəhərlərin yenilənməsi problemlərinin həllinə oriyentasiya edən strategiyaların işlənib hazırlanmasının zəruriliyini anlayırlar.

Strategiyaların işlənib hazırlanması məqsədi kimi, adətən aşağıdakıların adlan çəkilir: iqtisadiyyatda baş verən dəyişikliklərin ümumi şəkildə dərk edilməsi; şəhərin inkişaf istiqamətlərinin müəyyən edilməsi; müzakirələr və informasiya mübadiləsi nəticəsində iqtisadi siyasət sahəsində fəaliyyət göstərən dövlət, ictimai və özəl təşkilatların ən ehtimal olunan davranışların aydınlaşdırılması; şəhər sakinlərinin, yerli icmaların və müəssisələrin iqtisadi potensialının möhkəmləndirilməsi üzrə birgə iş üçün ümumi çərçivələrin yaradılması; iqtisadi siyasət subyektlərinə yardım və onlar tərəfindən

fəaliyyətlərin məqsədyönlülüyü və koordinasiyalılığını artırmağa imkan verəcək konkret qərarların qəbul edilməsi.

**"Bazar proseslərində onun elementlərinin (kiçik biznes, lizinq, birjalar və s.) effektiv tətbiqi"** adlı ikinci yarımfəsildə qeyd olunur ki, sahibkarlığın inkişafı müəyyən dərəcədə sosial ədalət probleminin həllinə yol açır. Çünki real iqtisadi həyat heç də xərclərin bərabər ölçüləri və cəmiyyətin müxtəlif təbəqələri və ayrı-ayrı insanlara münasibətdə faydalarla ifadə olunmur. Bazar qüvvələrinin azad oyunu müxtəlif iqtisadi subyektlərin maraqlarına eyni şəkildə təsir göstərmir. Əmtəələrin qiymətlərinin artımı birmənalı olaraq istehlakçılara zərər vurur. Lakin sahibkarlar üçün sərfəlidir. Sahibkar hətta resurslar üzrə qiymətlərin artmasını belə öz əmtəəsinin qiymətini artıraraq kompensasiyaedə bilər. Ancaq gəlirlərin bölüşdürülməsi haqqında bazar konsepsiyası hesab edir ki, daha bərabər bölüşdürmə sahibkarlar kimi ən fəal subyektlərə münasibətdə ədalətsiz olardı.[10]

Müasir sahibkarlığın şəxsiyyət komponenti – sahibkarın innovasiya risk əsasında istehsal amillərinin xüsusi şəkildə kombinasiya etmə qabiliyyətidir və bu, hər şeydən əvvəl, onun şəxsi keyfiyyətlərini nəzərdə tutur. Onlara ilk növbədə, aşağıdakı qabiliyyətlər aiddir: standart və qeyri-standart situasiyalarda qeyri-standart novator qərarları qəbul etmək; yeni istehsal, kommersiya və başqa məqsədləri operativ müəyyən etmək, innovasiya və kommersiya nəticəsində çevrilməsi nöqteyi-nəzərindən onların perspektivliyini qiymətləndirmək; resurs və əmtəələrin qiymət fərqlərindən əlavə gəlir əldə edilməsi nöqteyi-nəzərindən bazar konyunkturunu qiymətləndirmək; zəruri həcmdə informasiyanın operativ təhlili əsasında risk etmək və əlavə xalis gəlir əldə etmək məqsədilə evristik qabiliyyətlərdən istifadə etmək.[11]

Müasir sahibkarlıq fəaliyyəti yeni məhsullar istehsal etmək imkanına malik olan yeni firmaların yaradılmasına şərait yaratmalıdır, çünki qərb firmalarının əksəriyyəti gələcəkdə yeni məhsul istehsal etmək üçün şəxsi səriştə və bacarıqlarının mühümlüyünü yetərincə qiymətləndirmirlər. Bununla yanaşı, K.K.Prohalad və D.Hamel tərəfindən aparılmış səriştənin mahiyyətinin tədqiqi göstərir ki, firmalar səriştələr portfelinin istehsal və biznesdəki tendensiyalara necə qarşı durduğuna özləri əmin olmaq istəyirlər. Hazırki dövrdə hər bir əmtəə özünə əldə edilmiş bacarıqlar üzrə işləmə və investisiyalar seriyasını daxil edir. Bunlardan istifadəni tam şəkildə yalnız strateji alyans şəraitində reallaşdırmaq mümkündür.

---

[10]Ф.Биншток и др. Проблемы социальной стратегии в зеркале современной экономической жизни. М.: Эдиториал УРСС, 2002, с. 19-20.
[11]В.Кушлин и др. Экономика предпринимательства. М.: Владос, 1999, с. 145.

Firmanın hansı bacarıqlara malik olduğu haqqında təsəvvür rəhbərlər üçün həm alyans üzrə partnyorların seçilməsi, həm də gələcək rəqabət üstünlüklərinin təmin edilməsi üçün onun ehtiyacı olduğu texnologiya və bacarıqların müəyyən edilməsi üçün əsas kimi çıxış edə bilər və etməlidir.

Firma rəhbərliyinin rəqabət qabiliyyətli üstünlüklərlə alyans arasındakı əlaqənin xarakterini başa düşmək üçün ikinci addımı alyansların əksəriyyətinin onların iştirakçılarının müvəqqəti maraqlarına xidmət etdiyi faktını dərk etməkdən ibarətdir. Misal üçün, qərb firmalarının alyanslarının əksəriyyəti alyansın, alyans iştirakçılarının istədikləri bacarıqlara nail olana qədər mövcud olmasını nəzərdə tutur. Alyans üzrə partnyorun bacarıqların əldə edilməsində uğur qazanması halında alyansın saxlanması üçün həddən artıq az səbəb qalır. Analoji olaraq, alyans üzrə partnyorun özü yeni məhsulu ilə yeni bazara daxil olması birmənalı olaraq onu ifadə edir ki, həmin partnyorun şəxsi bacarıqlarının artması ilə alyansın faydalılığı onun üçün bir o qədər az əhəmiyyət kəsb etməyə başlayır.[12]

Naxçıvan MR-da sahibkarlıq fəaliyyəti yüksək templərlə inkişaf etmir. 01.01.2014-cü ilin məlumatlarına görə, muxtar respublikada işçilərin sayı 556 nəfər olan 149 fərdi sahibkarlıq təsərrüfatı qeydə alınmışdır. Məlumdur ki, sahibkarlıq fəaliyyəti əsas etibarı ilə ticarət və ictimai iaşə, xidmət, mehmanxana təsərrüfatı və s. kimi sahələri əhatə edir.

Statistik məlumatlar göstərir ki, muxtar respublikanın bu sahələrində zəruri ilkin şərtlər mövcuddur. Misal üçün, yalnız 2000-2016-cı illər ərzində Naxçıvan MR-nın pərakəndə əmtəə dövriyyəsi 66,9 mln. manatdan 1450,2 mln. manata qədər və 15,9 dəfə, bu göstəricinin respublikanın ümumi pərakəndə əmtəə dövriyyəsindəki xüsusi çəkisi isə 3,16%-dən 4,8%-ə qədər yüksəlmişdir.[13]

Pərakəndə əmtəə dövriyyəsinin artım templəri ümumrespublika göstəricilərini üstələyir. Analoji tendensiya xidmətlər sahəsində də müşahidə olunur. Tədqiq olunan dövr ərzində muxtar respublikada pullu xidmətlərin həcmi 10,7 mln. manatdan 213,2 mln. manata qədər, yəni 16,9 dəfə, adam başına – 29,8 manatdan 478,2 manata qədər, yəni 14,1 dəfə, məişət xidmətləri – 2,7 mln. manatdan 42,7 mln. manata və ya 13,5 dəfə artmışdır.[14]

Beləliklə, muxtar respublikada kiçik biznes qismində sahibkarlığın inkişafı üçün zəruri ilkin şərtlər mövcuddur.

---

[12]Стратегический менеджмент. Под ред. А.Н.Петрова. СПб.: Питер, 2005, с. 478.
[13]Azərbaycanın regionları. ARDSK. Bakı: Səda, 2014, s. 37, 66.
[14]Yenə orada

Üçüncü fəslin sonuncu yarımfəsli “**Kommersiya riski şəraitində bazar prosesinin indeks regionla göstəricilərinin müəyyən edilməsi**” adlanır. Qeyd olunur ki, regional tədqiqatlarda bazar prosesinin indeks göstəricilərinin müəyyən edilməsi ilə bağlı məsələlər mərkəzi yeri tuturlar. Belə müddəa ondan çıxış edir ki, məhz indeks göstəriciləri sayəsində bu və ya digər regionun rəqabət üstünlüklərini aşkar etmək mümkün olur. Rəqabət üstünlüklərinə nail olma və onların əldə saxlanması üzrə mübarizə edərək birbaşa rəqiblər öz rəqabət potensiallarını genişləndirməyə çalışırlar ki, bu da sahənin məcmu potensialının inkişafını təmin edir. Sahələrarası rəqabətin iştirakçıları müstəsna olaraq “istehlakçıların pulları uğrunda”, bu əsasda nüfuzlu dəyərlər zəncirinə daxil olmaq, var-dövlətli biznesmen nüfuzu qazanmaq uğrunda qarşılıqlı mübarizə aparırlar. Buna görə də onlar qarşılıqlı şərti-birbaşa rəqiblər kimi müəyyən olunurlar. Sahibkarlıq biznesi subyektlərinin sahəbrarası rəqabəti cəmiyyətin sahə strukturunun dinamikasına istinad edir. Daha az rəqabət qabiliyyətli kompaniyalar, əgər biznesin diversifikasiya istiqamətlərini duya bilsələr, öz istehlakçı və ya başqa dəyərini qəflətən artıra bilərlər. Əksinə, daha çox rəqabət qabiliyyətli kompaniyalar, əgər fəaliyyət göstərdikləri iqtisadiyyat sahəsi öz istehlakçı və cəmiyyət dəyərlərini itirmişdirsə, tədricən öz rəqabət üstünlüklərini itirə bilərlər. Şərti-birbaşa rəqiblər öz fəaliyyətlərini planlaşdırarkən iqtisadiyyat sahəsi və əmtəə qrupları miqyasında yalnız istehlakçı tərcihlərinin və tədiyyə qabiliyyətli tələbin qarışığından istifadə edirlər. Onların rəqabəti tərəqqiyə yol açır: iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı cəmiyyətin sahə strukturunun dəyişməsini əks etdirir. Kommersiya riski şəraitində bazar prosesinin regional indeks göstəricilərinin mühümlüyünü nəzərə alaraq, tərəfimizdən bu məsələni sistemli yanaşma mövqeyindən həll etmək məqsədi irəli sürülmüşdür. Tədqiqat işinin nəzəri hissəsində işlənib hazırlanmış üsul ilə muxtar respublikanın aşağıdakı ardıcıllıqda bazar prosesinin regional indeks göstəricilərinin müəyyən edilməsi və praktiki hesablanmasına cəhd edilmişdir:

- ayrı-ayrı əmtəə qrupları (muxtar respublikanın) üzrə etalon regiona nisbətən (ümumən respublika üzrə) region əhalisinin gəlirlərinin deflyasiyası üçün təshihedici əmsalların müəyyən edilməsi;
- əmtəə-sahə əlaməti üzrə regional indekslərin son hədd qiymətlərinin diferensiasiya əmsalının müəyyən edilməsi;
- muxtar respublikada artıq tələbin kommersiya riskinin səviyyəsinə təsiri dərəcəsinin müəyyən edilməsi (təşkilati-qrafiki model);
- muxtar respublikada azalmış təklifin kommersiya riskinin səviyyəsinə təsiri dərəcəsinin müəyyən edilməsi (təşkilati-qrafiki model);
- verilmiş regionun bazar proseslərinin multiplikativ modellərinin

müəyyən edilməsi;
- verilmiş regionun bazar proseslərinin additiv modellərinin müəyyən edilməsi;
- regionun bazar proseslərinin tədqiqində tam bölünən modellərin müəyyən edilməsi;
- ölkə əmtəə axınından asılılığı əlaqələndirən ixrac modelinin müəyyən edilməsi;
- ölkə əmtəə axınından asılılığı əlaqələndirən idxal modelinin müəyyən edilməsi;
- region əhalisinin həyat keyfiyyətinin inteqral göstəricisinin qiymətləndirilməsi.

Regionların endogen inkişafının stimullaşdırılmasının ən tərcih edilən metodlarından biri yüksək texnologiyaların tətbiqidir. OECD ölkələrində yüksək texnologiyalar əsasında regional inkişaf məsələsinə böyük diqqət ayrılır.Bazar münasibətlərinə keçid şəraitində elmi-texniki siyasətin regional aspekti ədəbiyyatda kifayət qədər geniş şərh olunmuşdur.[15] Burada artıq formalaşmış regionlarda – liderlərdə tətbiq edilən tədbirlərin və depressiv areallarda innovasiyanı stimullaşdıran tədbirlərin fərqləndirilməsinə diqqət yetirmək lazımdır. Mahiyyət etibarı ilə demək olar ki, bütün regionlar qeyri-əlverişli areallarda innovasiya şəraitinin yaxşılaşdırılmasında maraqlı olmalı və yerli firmalara öz texnologiyalarını yeniləməkdə kömək etməlidirlər. Bu texnologiyaların yayılması üzrə innovasiya mərkəzləri və agentliklərinin yaradılmasını; universitetlərdə elmi-tədqiqat parklarının yaradılmasını; kiçik, yüksək texnoloji, eyni zamanda yüksək riskli firmaların, xüsusilə depressiv areallarda inkişafının stimullaşdırılmasını; yüksək texnoloji müəssisələrin yerləşdirilməsi kimi, areallların infrastruktur təminatının yaxşılaşdırılmasını; innovasiyaların həvəsləndirilməsinin xüsusi fondunun yaradılmasını və s. nəzərdə tutur. Daha sonra ayrı-ayrı əmtəə qrupları (muxtar respublikanın) üzrə etalon regiona nisbətən (ümumən respublika üzrə) region əhalisinin gəlirlərinin def-lyasiyası üçün təshihedici əmsalların müəyyən edilməsi üzrə konkret praktiki hesablamaları həyata keçirəcəyik.

İşdə hesablama göstəriciləri kimi, muxtar respublikada ($P_i^t$) və ümumən respublika üzrə ($P_i^k$) ayrı-ayrı əmtəə növləri üzrə qiymət indeksləri, habelə əhalinin əmtəə alışı üzrə istehlakçı gəlirləri indeksbri $(V_i)$ seçilmişdir.

---

[15] А.Евсенко, В.Зверев, Г.Унтура. Процессы регионального научно-технического развития. Новосибирск.: ИЭ и ОПП СО РАН, 1996, с. 216.

Aparılmış hesablamalar göstərdi ki, tədqiq edilən regionun əhalisinin alıcılıq qabiliyyətinin tarazlaşdırılması üçün muxtar respublika əhalisinin gəlirlərini artırmaq lazımdır və indekslərin nisbəti göstəriciləri bundan xəbər verir (i). Bu göstəriciyə əsaslanaraq, tərəfimizdən region əhalisinin ayrı-ayrı əmtəə qrupları üzrə gəlirlərinin deflyasiyası üçün aşağıdakı təshihedici əmsallar əldə edilmişdir (bax: cədvəl 4).

**Ayrı-ayrı əmtəə qrupları üzrə etalon regiona nisbətən region əhalisinin gəlirlərinin deflyasiyası üçün təshihedici əmsalların (Ə) müəyyən edilməsi**

**Cədvəl 4**

| Əmtəələrin adları (i) | Təshihedici əmsallar $(K=V_i \cdot i)$ | Əhalinin əmtəə alışı üzrə gəlir istehlakçı gəlirlərinin indeksi (Vi) | T regionda i-ci növdən olan əmtəələr üzrə qiymət indeksi $(P_i^T)$ | Etalon regionda i-ci növdən olan əmtəələr üzrə qiymət indeksi $(P_i^R)$ | İndekslərin nisbəti $(i)=P_i^T/P_i^R$ |
|---|---|---|---|---|---|
| 1. Emal sənayesi | 1,352 | 1,345 | 1,098 | 1,092 | 1,005 |
| - qida məhsulları, içkilərin və tütünün emalı | 1,417 | -//- | 1,385 | 1,314 | 1,054 |
| - toxuculuq sənayesi | 1,356 | -//- | 1,198 | 1,188 | 1,008 |
| 2. Kənd təsərrüfatı – cəmi | 1,353 | 1,345 | 1,119 | 1,112 | 1,006 |
| - bitkiçilik məhsulları | 1,352 | -//- | 1,120 | 1,114 | 1,005 |
| O cümlədən: Dənli bitkilər | 1,349 | -//- | 1,341 | 1,337 | 1,003 |
| Kartof | 1,368 | -//- | 0,991 | 0,974 | 1,017 |
| Tərəvəz | 1,358 | -//- | 1,032 | 1,021 | 1,010 |
| Meyvə | 1,352 | -//- | 1,041 | 1,035 | 1,005 |
| 3. Heyvandarlıq məhsulları | 1,352 | 1,345 | 1,131 | 1,125 | 1,005 |
| O cümlədən: İribuynuzlu qaramal | 1,435 | -//- | 1,291 | 1,210 | 1,067 |
| Diri quşlar | 1,360 | -//- | 1,075 | 1,063 | 1,011 |
| Süd | 1,407 | -//- | 1,365 | 1,305 | 1,046 |
| Yumurta | 1,356 | -//- | 1,087 | 1,078 | 1,008 |

Muxtar respublikada bazar proseslərinin praktiki tədqiqinin həyata keçirilməsinin növbəti mərhələsi regional indekslərin son hədd qiymətlərinin diferensiasiya əmsalının müəyyən edilməsidir ($Ə_{dif}$). Hesablamalar cədvəl üzrə aşağıdakı nəticələri vermişdir (bax: cədvəl 5).

**Regional indekslərin son hədd qiymətlərinin diferensiasiya əmsalının müəyyən edilməsi**

**Cədvəl 5**

| **Əmtəələrin adları (i)** | IndRmin | IndRmax | Kdif = IndRmin/IndRmax |
|---|---|---|---|
| 1. Emal sənayesi | 1,345 | 1,352 | 0,995 |
| - qida məhsulları, içkilərin və tütünün emalı | -//- | 1,417 | 0,949 |
| - toxuculuq sənayesi | -//- | 1,356 | 0,992 |
| 2. Kənd təsərrüfatı – Cəmi | 1,345 | 1,353 | 0,994 |
| - bitkiçilik məhsulları | -//- | 1,352 | 0,995 |
| O cümlədən: Dənli bitkilər | -//- | 1,349 | 0,997 |
| Kartof | -//- | 1,368 | 0,983 |
| Tərəvəz | -//- | 1,358 | 0,990 |
| Meyvə | -//- | 1,352 | 0,995 |
| 3. Heyvandarlıq məhsulları | 1,345 | 1,352 | 0,995 |
| O cümlədən: İribuynuzlu qaramal | -//- | 1,435 | 0,937 |
| Diri quşlar | -//- | 1,360 | 0,990 |
| Süd | -//- | 1,407 | 0,956 |
| Yumurta | -//- | 1,356 | 0,992 |

Fikrimizcə, bu problemin həlli üçün sistemli yanaşma lazımdır. Bunun üçün cədvəl 6.-da az təminatlı ailələrdə minimal xərclərlə ərzaq məhsulları və qeyri-ərzaq mallarının faktiki istehlakının nəzərə alınması ilə əhalinin əsas sosial-demoqrafik qrupları üçün ərzaq məhsullarının və qeyri-ərzaq mallarının minimal dəstini verilənlərindən istifadə edək.

**Naxçıvan MR üzrə əhalinin əsas sosial-demoqrafik qrupları üçün ərzaq məhsullarının (ildə kq) və bir sıra qeyri-ərzaq mallarının (il) minimal dəsti**

**Cədvəl 6**

| **Ərzaq məhsulları və qeyri-ərzaq mallarının növləri** | **Normativlər** | | | **Faktiki vəziyyət** | | |
|---|---|---|---|---|---|---|
| | əmək qabiliyyətli əhali | təqaüdçülər | 15 yaşa qədər uşaqlar | əmək qabiliyyətli əhali | təqaüdçülər | 15 yaşa qədər uşaqlar |
| 1.Çörək məhsulları | 177 | 120 | 100 | 165 | 110 | 80 |
| 2.Kartof | 150 | 90 | 110 | 135 | 85 | 106 |
| 3.Tərəvəz | 95 | 98 | 100 | 90 | 93 | 95 |
| 4.Meyvə | 20 | 15 | 35 | | | |
| 5.Şəkər və qənnadı məmulatları | 25 | 18 | 20 | 20 | 15 | 16 |
| 6.Ət məhsulları | 40 | 30 | 25 | 32 | 26 | 21 |
| 7.Balıq məhsulları | 15 | 14 | 12 | 10 | 9 | 11 |
| 8.Süd məhsulları | 220 | 200 | 300 | 200 | 170 | 250 |
| 9.Süd, cəmi | 15 | 10 | 12 | 11 | 8 | 10 |
| 10.Geyim: Palto | 7 | 8 | 4 | 6 | 7 | 3 |
| Plaş (gödəkçə) | 6 | 7 | 3 | 5 | 6 | 2 |
| 11.Kostyum (kişi) | 4 | 5 | 3 | 3 | 4 | 2 |
| 12.Paltar (qadın) | 3 | 4 | 2 | 2 | 3 | 1 |
| 13.Camper (kişi) | 4 | 5 | 3 | 4 | 5 | 2 |
| 14.Bluzka (qadın) | 3 | 4 | 2 | 2 | 3 | 1 |
| 15.Ayaqqabı (kişi) | 2 | 3 | 1,5 | 1 | 2 | 1 |
| Ayaqqabı (qadın) | 1,5 | 2 | 1,0 | 1 | 1 | 1 |

Göründüyü kimi, hazırki dövrdə muxtar respublika əhalisinin əsas sosial-demoqrafik qrupları üçün ərzaq məhsullarının və bir sıra qeyri-ərzaq mallarının minimal dəstinin faktiki vəziyyəti normativ göstəricilərdən geri qalır. Ancaq fikrimizcə, istehlak səbəbinin normativ və faktiki göstəricilərin kəmiyyətcə müqayisəsi region əhalisinin həyat keyfiyyətinin tam mənzərəsini vermir. Buna görə də region əhalisinin həyat keyfıyyətinin inteqral qiymətləndirilməsini aparmaq məqsədəuyğun görünür. Bu istiqamət üzrə hesablamalar cədvəl 7.-də təqdim edilmişdir.

**Verilmiş regionun əhalisinin həyat keyfiyyətinin inteqral göstəricisinin qiymətləndirilməsi**

**Cədvəl 7.**

| Ayrı-ayrı əmtəələrin adları | Həyat keyfiyyətinin inteqral göstəricisi (İhk) | Əhalinin həyat keyfiyyətinin qiyməti, % (Kh) və ya (Kdif) | Həyat keyfiyyətinin təkrar istehsal xərclərinin cəmi (Z) [dəst– 18] | Regionun qiymətləndirilən həyat keyfiyyətinin təkrar istehsallba çəkilən cəmi xərclər (Xt) [dəst – 25] |
|---|---|---|---|---|
| 1.çovdar-buğda çörəyi | 0,744 | 0,997 | 252,0 | 188,2 |
| 2.buğda çörəyi | 0,723 | 0,997 | 238,0 | 172,3 |
| 3.darı | 0,534 | 0,997 | 50,0 | 26,8 |
| 4.vermişel | 0,708 | 0,997 | 20,0 | 14,2 |
| 5.kartof | 0,836 | 0,983 | 400,0 | 340,3 |
| 6.kələm | 0,929 | 0,990 | 82,0 | 77,0 |
| 7.alma | 1,782 | 0,995 | 30,0 | 53,2 |
| 8.şəkər | 0,827 | 0,992 | 68,0 | 56,7 |
| 9.dana əti 1-ci dərəcəli | 0,187 | 0,937 | 115,1 | 23,0 |

Göründüyü kimi, tədqiq edilən ayrı-ayrı əmtəə qrupları (digər əmtəə qrupları statistik məlumatlar olmadığından, nəzərdən keçirilməmişdir) üzrə region əhalisinin həyat keyfiyyətinin inteqral göstəricisi təxminən 0,70 və 70% təşkil edir. Bütün bunlar muxtar respublika əhalisinin həyat keyfiyyətinin artırılması məqsədilə regionda bazar proseslərinin təkmilləşdirilməsinin zəruriliyini şərtləndirir.

Dissertasiya işinin sonunda tədqiqatın məzmunundan irəli gələn nəticə və təkliflər verilmişdir.

Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. Методы и методика исследования рынка в обособленном экономическом районе в условиях риска // Академия коммер-

ческих наук Российской Федерации система методов управления рыночными процессами. Москва, 2010, с. 323-344.

2. Kommersiya riski şəraitində bazar prosesləri tədqiqinin metodiki üsullarının xüsusiyyətləri // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi əsərləri, 2011, №1, s. 91-96.
3. Bazar proseslərinin regional tədqiqi metodologiyası // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri, 2011, №3, s. 197-201.
4. Bazar proseslərində onun elementlərinin (kiçik biznes, lizinq, birjalar və s.) effektiv tətbiqi (Naxçıvan MR timsalında) // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitunun Elmi əsərləri, 2012, №1, s. 115-121.
5. Bazar proseslərinin regionlararası əlaqələrinin kompleks tədbirlərinin trategiya və konsepsiyası // Biznes Universiteti-Audit jurnalı, 2012, №1, s. 86-89.
6. Диагностика рыночных процессов на уровне предприятий // Наука и Бизнес: Пути Развития, 2012, №2 (08), с. 95-99.
7. Regionda bazar prosesləri tədqiqinin metodlar sistemi // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat seriyası, 2012, №1, s. 193-197.
8. Müəssəsələr səviyyəsində bazar proseslərinin diaqnostikası // Azərbaycan Aqrar Elmi. Elmi nəzəri jurnal, 2012, №2, s. 162-164.
9. Еффективное развитие предпринимательства в Нахичеванской АР / Архивариус научные журналы по результатам XX международной научно-практической конференции. Киев, 2017, часть 1, с. 87-92.

**Назим Хикмет оглы Мамедли**

# УПРАВЛЕНИЕ РЫНОЧНЫМИ ПРОЦЕССАМИ В НАХИЧЕВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ И ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ

## Резюме

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во **введении** диссертации обосновывается актуальность избранной темы, выбор объекта и предмета исследования, степень изученности проблемы, теоретико-методологические основы работы, раскрывается научная новизна и практическая значимость исследования.

Во I главе **«Концептуальные подходы к исследованию рыночных процессов в регионе»** рассматривается методология регионального исследования рыночных процессов, теория регионального роста в условиях нестабильной экономики; система методов исследования региональных рыночных процессов.

Во II главе **«Системный анализ и диагностика современного состояния рыночных процессов в Нахичеванской Автономной Республике»** осуществлен выбор методических приемов региональных рыночных процессов в условиях коммерческого риска; проведен отраслевой анализ рыночных процессов; дана диагностика рыночных процессов на уровне предприятий.

Во II главе **«Основные направления подготовки региональной стратегии рыночных процессов и их перспективы»** проведены комплексные исследования по выработки стратегий и концепций рыночных процессов; определение эффективных подходов исследования рыночных процессов; определения регионных индексных показателей в условиях коммерческого риска.

В **заключении** обобщены основные результаты исследования.

The thesis includes an introduction, three chapters, a conclusion and a literature review.

**Nazim Hikmet oglu Mammadli**

# MARKET PROCESSES MANAGEMENT IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND DEVELOPMENT PRIORITY GUIDELINES

## Summary

The **introduction** of the thesis substantiates the relevance of the selected topic, the choice of the research object and subject, the extent of the problem study, the theoretical and methodological foundations of the research, the scientific novelty and practical significance of the research are disclosed.

The I chapter **"Conceptual approaches to the study of market processes in the region"** investigates the methodology of regional research of market processes, the theory of regional growth in an unstable economy, system of methods for the study of regional market processes.

The selection of methodological techniques for regional market processes under commercial risk conditions is carried out; an industry analysis of market processes is performed; the diagnosis of market processes in the enterprises is given in the II chapter **"System analysis and diagnostics of the current state of market processes in the Nakhchivan Autonomous Republic"**.

The III chapter **"The main directions of the development of the regional strategy of market processes and their prospects"** conducts comprehensive analysis of the development of strategies and concepts of market processes; determines the effective approaches to research of market processes; determines the regional index indicators in conditions of commercial risk.

In **conclusion**, the main findings of the research are summarized.

Çapa imzalanmışdır: 25.05.2018
Formatı: 60/84, 16/1
Sifariş: 114
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.***

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**НАЗИМ ХИКМЕТ ОГЛЫ МАМЕДЛИ**

# УПРАВЛЕНИЕ РЫНОЧНЫМИ ПРОЦЕССАМИ В НАХИЧЕВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ И ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ

**Специальность: 5311.01 – Организация и управление предприятиями**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по экономике**

**НАХЧЫВАН – 2018**